BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2010

# AZƏRBAYCAN VƏ ŞƏRQİ AVROPA ÖLKƏLƏRİ ARASINDA BEYNƏLXALQ MƏDƏNİ TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

**H.N.MƏMMƏDOV**
***Bakı Slavyan Universiteti***
***Habildos@mail.ru***

*Məqalədə Azərbaycan və Şərqi Avropa ölkələri arasında beynəlxalq mədəni turizm sahəsində əməkdaşlığın bütün formaları ardıcıl olaraq şərh edilmişdir. Beynəlxalq mədəni turizm sahəsində əməkdaşlıq Azərbaycan və Şərqi Avropa ölkələri arasında mədəni əlaqələrin inkişafında aparıcı amillərdən biri kimi çıxış edərək, özünəməxsus rola malik olmuş, ölkələrimiz arasında mədəniyyətlərarası əməkdaşlığın və inteqrasiyanın güclənməsinə təkan vermişdir.*

Azərbaycanın tarixi abidə və şəhərlər, muzey və rəsm qalereyaları, məscid və kilsələr, məbədlər, irs parkları, karvansaralar və s. ilə zəngin olması ölkəmizdə beynəlxalq mədəni turizmin inkişafına əlverişli şərait yaratmışdır. Xarici turizm Azərbaycanın Şərqi Avropa ölkələri ilə qarşılıqlı mədəni əməkdaşlığının sahələrindən biri olub, ölkələrarası bərabərlik, əməkdaşlıq, qarşılıqlı anlaşma və həmrəylik üçün müsbət rol oynayır, xalqlarımız arasında daha yüksək etibar və hörmətin əsası kimi çıxış edir. Dövlətlər arasında yüksək turist axınına nail olunması sosial-iqtisadi faydalılıqdan əlavə, həm də yüksək imicin formalaşdırılmasına, xalq diplomatiyasının inkişafına və canlı informasiyanın yayılmasına xidmət edir. Turizm sahəsində əməkdaşlığın inkişafı Azərbaycan və Şərqi Avropa ölkələri arasında mədəniyyətlərarası dialoqun və inteqrasiyanın güclənməsinə təkan vermişdir.

Tarixi İpək Yolunun bərpası (1998), Turizm haqqında Azərbaycan Respublikasının Qanunu (27 iyul 1999-cu il), Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması (18 aprel 2001-ci il), Respublikamızın Ümumdünya Turizm Təşkilatına tam hüquqlu üzv qəbul edilməsi (25 avqust 2001-ci il), 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı (27 avqust 2002-ci il), 2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı (11 fevral 2004-cü il) bu sahənin inkişafına güclü təkan verdi [18, 86]. Azərbaycanda turizm sahəsində dövlət siyasətini həyata keçirən Mədəniyyət və Turizm Nazirliyi (2006-cı ilə kimi Gənclər, İdman və Turizm Nazirliyi) tərəfindən son illərdə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi və müasir infrastrukturun yaradılması, hüquqi-normativ aktların qəbul edilməsi, ölkəmizin mövcud turizm potensialının beynəlxalq aləmdə tanınması, turistlərin respublikamıza çoxsaylı səfərlərinin təşkili istiqamətində məqsədyönlü işlər görülməkdədir. Görülən işlər nəticəsində ölkəmizə gələn turistlərin sayının ildən-ilə artması müşahidə olunur. Belə ki, əgər 2002-ci ildə Azərbaycana 428 min nəfər xarici turist səfər etmişdirsə, 2007-ci ildə 1 milyon 320 min turist [16] gəlmişdir. 2008-ci il ərzində Azərbaycan Respublikasına 1,5 milyon turist gəlmişdir ki, bunlardan 630860

nəfəri Rusiya Federasiyasından [3, v.9], 1705 nəfəri Moldovadan [5, v.2], 885 nəfəri Rumıniyadan [6, v.3], 1830 nəfəri Polşadan [7, v.3], 1193 nəfəri Bolqarıstandan [8,v.2] və 4660 nəfəri Belarusdan [9, v.2] səfər etmişdir.

Ötən illər ərzində ölkəmizdə turizm sahəsində çoxsaylı beynəlxalq tədbirlər keçirilmişdir. Rusiyadan başlayıb Hindistanda bitən «XV əsr səyyahı Afanasi Nikitinin izləri ilə» adlı turizm marşrutu layihəsinin Azərbaycan ərazisindən keçməsi ölkəmizin mövcud turizm potensialının beynəlxalq aləmdə, o cümlədən Şərqi Avropada təbliğ olunması baxımından olduqca səmərəli olmuşdur.

Turizm sahəsində Şərqi Avropa ölkələri ilə çoxtərəfli əməkdaşlıq münasibətləri Ümumdünya Turizm Təşkilatı (ÜTT), MDB-nin Turizm şurası, Demokratiya və İqtisadi inkişaf naminə – GUAM təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) çərçivəsində inkişaf etməkdədir. MDB ölkələrindən Azərbaycana gələn turistlərin böyük əksəriyyəti Rusiya və Ukraynanın payına düşür.

2002-ci ilin 5-6 mart tarixlərində İstanbul şəhərində keçirilən QDİƏT-in Turizm üzrə İşçi qrupunda Azərbaycan və Rumıniya nümayəndələri ikitərəfli əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparmışlar.2003-cü ilin 25-26 sentyabr tarixlərində Bakıda «QDİƏT regionunda turizm imkanları» mövzusunda keçirilən beynəlxalq konfransda Rumıniyanın Nəqliyyat, Tikinti və Turizm Nazirliyinin beynəlxalq əlaqələr idarəsinin müşaviri Luminiata Panait iştirak etmişdir. 2004-cü ilin 20-21 may tarixlərində Rumıniyanın Buxarest şəhərində «Regionda imkanlar və perspektivlər» mövzusunda keçirilən Qara Dəniz Turizm Konfransında Azərbaycan Respublikasının Rumıniyadakı Səfirliyinin nümayəndəsi iştirak etmişdir [11]. 2003-cü il 25-26 sentyabr tarixlərində Bakıda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində keçirilmiş «QDİƏT regionunda turizm imkanları» Beynəlxalq Konfransında Bolqarıstanı Azərbaycanda yeni təyin olunmuş Bolqarıstan Respublikasının Səfiri İ.Palçev təmsil edirdi [8,v.2]. 2005-ci ilin 9-10 oktyabr tarixində Moldova Respublikasında QDİƏT-in turizm əməkdaşlığı üzrə İşçi Qrupunun İclası çərçivəsində keçirilmiş IV «Şərab Bayramı-2005» tədbirlərində nazirliyin nümayəndəsi iştirak etmişdir [5, v.2].

2007-ci ilin 16-17 aprel tarixlərində Bakıda BMÜTT ilə birgə "Turizm marketinqi və reklam texnikası" mövzusunda keçirilmiş regional seminarda Ukraynanın Mədəniyyət və Turizm Nazirliyinin nümayəndəsi iştirak etmişdir [4,v.2]. Həmin ilin 26-29 noyabr tarixində Kolumbiyada keçirilmiş BMÜTT-nin Baş Assambleyasında Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev ilə Belarus Respublikasının nümayəndə heyətinin rəhbəri arasında görüş keçirilmiş, qarşı tərəfə ölkəmizin turizm potensialını əks etdirən reklam-çap məhsulları təqdim edilmişdir [9, v.2].

2008-ci il 17 mart tarixində Moskva şəhərində keçirilən MDB-nin Turizm üzrə Şurasının iclasında, 2008-ci il 24-25 mart tarixində GUAM-ın Turizm üzrə İşçi qrupunun növbəti iclasında, 2008-ci il 9-14 aprel tarixlərində Ukraynanın Odessa şəhərində Avropa Şurasının Kiyev Təşəbbüsü Regional Proqramı çərçivəsində "Şərab, Mədəniyyət, Turizm mübadiləsi" beynəlxalq mədəni turizm marşrutu layihəsi ilə bağlı keçirilən plenar iclasda, 2008-ci il 1-6 oktyabr tarixində Qelencik şəhərində QDİƏT çərçivəsində «Qara dəniz regionunda kurort və turizm infrastrukturunun inkişafı» mövzusunda keçirilmiş konfransda, 2008-ci il 14 oktyabr tarixində Albaniyanın Tirana şəhərində QDİƏT çərçivəsində "Əməkdaşlıq mədəni turizmin davamlı inkişafında həlledici vasitə kimi" adlı görüşdə AR Mədəniyyət və Turizm Nazirliyi

təmsil olunmuşdur. Qeyd olunan tədbirlərdə AR Mədəniyyət və Turizm Nazirliyi ilə Ukraynanın müvafiq turizm qurumu arasında müvafiq danışıqlar aparılmışdır [4,v.2].

2002-ci ilin aprel ayından başlayaraq hər il Bakıda «AİTF» Beynəlxalq turizm sərgisi keçirilir. Sərgidə 2002-ci ildə 12 ölkədən 43 şirkət, 2003-ci ildə 8 ölkədən 32 şirkət, 2004-ci ildə 12 ölkədən 56 şirkət, 2005-ci ildə 12 ölkədən 39 şirkət, 2006-ci ildə 10 ölkədən 54 şirkət, 2007-ci ildə 18 ölkədən 73 şirkət, 2008-ci ildə 28 ölkədən 90 şirkət iştirak etmişdir [12, v.1]. Cari arxiv sənədindən məlum olur ki, 2002-2006-cı illərdəki sərgilərdə Şərqi Avropa ölkələrindən yalnız Rusiya və Ukraynanın, 2007-ci ildə Bolqarıstan, Latviya, Rusiya və Ukraynanın, 2008-ci il aprelin 16-da keçirilən 7-ci Azərbaycan Beynəlxalq «Turizm və Səyahət» və 2-ci Azərbaycan Beynəlxalq «Otel biznesi» sərgisində Belorus, Latviya, Ukrayna və Rusiyanın şirkətləri fəal təmsil olunmuşdular [12, v.1;13]. Eyni zamanda, AR Mədəniyyət və Turizm Nazirliyi əgər 2002-ci ildə 2 Beynəlxalq sərgidə iştirak etmişdirsə, son 5 il ərzində sərgilərin coğrafiyası genişlənmiş və ölkələrin sayı 19-a çatmışdır. 2006-cı ilin 6-9 aprel tarixlərində Rumıniyanın Buxarest şəhərində keçirilən turizm üzrə sərgidə Nazirlik təmsil edilmişdir [11].

Bununla yanaşı, qarşılıqlı əməkdaşlıqda Moskva və Kiyev şəhərlərində keçirilən Beynəlxalq turizm sərgiləri mühüm yer tutur. 2002-ci ildən etibarən Azərbaycan Rusiyanın və Ukraynanın Beynəlxalq Turizm sərgilərində hər il mütəmadi olaraq iştirak edir. 2008-ci il martın 15-19 tarixində Moskva şəhərində keçirilmiş «İntourmarket» Beynəlxalq Turizm Sərgisində Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşları və 8 nəfərlik rəqs ansamblı iştirak etmişlər [3, v.9]. 13-19 may tarixində isə Moskvada keçirilən«MİTF 2008» beynəlxalq turizm sərgisində Azərbaycanın fəal iştirakı diqqəti cəlb edir [17]. 2007-ci və 2008-ci illərin aprel tarixlərində Moldovanın Kişineyov şəhərində keçirilmiş «Tourism. Leisure. Hotels-2007» və «Tourism. Leisure. Hotels-2008» adlı Beynəlxalq Turizm sərgilərində Respublikamızın Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı iştirak etmişdir [5, v.2]. 2008-ci ilin fevralında Latviyanın Riqa şəhərində təşkil edilən «BattTour-2008» beynəlxalq turizm sərgisində Respublikamızın Mədəniyyət və Turizm Nazirliyi iştirak etmiş və sərgi ilə əlaqədar olaraq sahəsi 28 kv. m. olan lövhə icarəyə götürmüşdür [15].

Turizm sahəsində əməkdaşlığın genişlənməsində ikitərəfli əlaqələr xüsusi yer tutur. İkitərəfli sazişlər turizm sahəsində ölkələrimiz arasında bərabər və qarşılıqlı faydaya əsaslanan əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı turist səfərlərinin təşkili və reallaşdırılması üçün vacib olan müqavilə hüquqi bazanı şərtləndirmişdir.

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında turizm sahəsində ikitərəfli əməkdaşlığın genişlənməsinə böyük diqqət yetirilir. Moskva, Sankt-Peterburq şəhərlərinin, Stavropol vilayətinin nümayəndə heyətləri, «Böyük Volqa yolu» Beynəlxalq Konfransın iştirakçıları və s. şəhər və vilayətlərin nümayəndələri 2002-2007-ci illər ərzində Azərbaycana səfər etmişlər [3, v.9].

3-4 oktyabr 2005-ci il tarixlərində Latviya Respublikasının Prezidenti xanım V.Vike–Frayberqanın Azərbaycana rəsmi səfəri çərçivəsində hər iki ölkənin işgüzar dairələrinin nümayəndələrinin iştirakı ilə keçirilmiş biznes forum çərçivəsində Azərbaycanın «Dərviş travel», «Anadolu travel» və «Caspian travel» turist şirkətləri və Latviyanın «Columbus Travel LTD», «Ulanda LTD», «Lainel LTD» turist şirkətləri arasında görüş keçirilmiş və gələcək əməkdaşlıq istiqamətləri müzakirə edilmişdir [10, v.3].2008-ci il 8-12 oktyabr tarixində respublikamızda fəaliyyət göstərən

mehmanxanaların nümayəndələri və Xaçmaz Turizm İnformasiya Mərkəzinin müdirinin Ukraynaya tanışlıq səfəri təşkil edilmişdi r [4,v.2].

2007-ci ildə Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın II iclasında Azərbaycan Respublikasının nümayəndə heyətinin tərkibində Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin səlahiyyətli nümayəndəsi iştirak etmişdir. İclasda həmçinin, gələcəkdə turizm sahəsində sıx əlaqələrin qurulması və iki ölkə arasında bu sahədə əməkdaşlığın genişləndirilməsi ilə əlaqədar məsələlər və qarşılıqlı perspektiv fəaliyyət müzakirə edilmişdir [8,v.2].

2007-ci ilin 21-24 may tarixində Belarusda keçirilən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində turizm sahəsində ikitərəfli əməkdaşlığın inkişafı və həmçinin Azərbaycan Respublikasının turizm potensialını əks etdirən müvafiq broşürlər, disklər və digər təbliğat materiallarının Belarus Respublikasının mətbuat orqanlarında nəşr olunması məqsədilə qarşı tərəflə müzakirələr aparılmış, Azərbaycan turizminin inkişaf nailiyyətlərinə dair sənədlər, onun turizm potensialını özündə əks etdirən çap məhsulları və CD-lər Belarus tərəfinə təqdim olunmuşdur [9, v.2].

Yuxarıda qeyd edilənlər əsasında belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan və Şərqi Avropa ölkələri arasında turizm əlaqələri yüksələn xətlə inkişaf etmişdir. Eyni zamanda, turizm əlaqələrinin inkişafına mane olan aşağıdakı amilləri göstərmək olar:

– turizm biznesinin xüsusiyyətlərini nəzərə alan vergi güzəştlərinin olmaması, vergi siyasətinin az səmərəliliyi;

– turizm sənayesinin gəlirli fəaliyyətini təmin edən vahid hüquqi aktlar və iqtisadi mexanizmlər sisteminin zəifliyi;

– turizm sənayesi üçün peşəkar kadr hazırlığı sisteminin zəifliyi;

– turizm sahəsinə xarici və yerli investisiya axını mexanizminin olmaması;

– turizmə xidmət edən yetkin informasiya sisteminin zəifliyi;

– xidmətlərin aşağı səviyyədə, qiymətlərin isə yüksək olması;

– 20% torpaqlarımızın işğalı ölkədə mədəni turizmin inkişafına ciddi zərbə vurur.

## ƏDƏBİYYAT


1. Azərbaycan mətbəxi əcnəbilər tərəfindən rəğbətlə qarşılanmışdır. «Respublika» qəz., 2007, 14 iyun
2. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Turizm şöbəsinin Xarici turizm sektorunun cari arxivi. Azərbaycan Respublikası Hökuməti ilə turizm sahəsində əməkdaşlığa dair bağlanmış Hökumətlərarası Sazişlər haqqında Məlumat, 1 v.
3. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq əlaqələr və mədəniyyət proqramları şöbəsinin cari arxivi. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında mədəniyyət və turizm sahələrində əməkdaşlıq haqqında Arayış, 9 v.
4. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq əlaqələr və mədəniyyət proqramları şöbəsinin cari arxivi. Azərbaycan Respublikası ilə Ukrayna arasında mədəniyyət və turizm sahələrində əməkdaşlıq haqqında Arayış, 3 v.
5. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq əlaqələr və mədəniyyət proqramları şöbəsinin cari arxivi. Azərbaycan Respublikası və Moldova Respublikası arasında mədəniyyət və turizm sahələrində əməkdaşlığa dair Arayış, 2 v.
6. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq əlaqələr və mədəniyyət proqramları şöbəsinin cari arxivi. Azərbaycan Respublikası və Rumıniya Respublikası arasında mədəniyyət və turizm sahələrində ikitərəfli əməkdaşlıq haqqında Arayış, 3 v.

7. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq əlaqələr və mədəniyyət proqramları şöbəsinin cari arxivi. Polşa Respublikası ilə mədəniyyət və turizm sahələrinə dair ikitərəfli əməkdaşlıq haqqında Arayış, 3 v.
8. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq əlaqələr və mədəniyyət proqramları şöbəsinin cari arxivi. Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında mədəniyyət və turizm sahələrində əməkdaşlıq haqqında Arayış, 2 v.
9. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq əlaqələr və mədəniyyət proqramları şöbəsinin cari arxivi. Azərbaycan Respublikası və Belarus Respublikası arasında ikitərəfli əməkdaşlıq haqqında Arayış, 2 v.
10. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq əlaqələr və mədəniyyət proqramları şöbəsinin cari arxivi. Azərbaycan Respublikası və Latviya Respublikası arasında mədəniyyət və turizm sahələrində əməkdaşlığa dair Arayış, 3 v.
11. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Turizm şöbəsinin Xarici turizm sektorunun cari arxivi. Azərbaycan Respublikası və Rumıniya Respublikası arasında turizm sahəsində görülən işlər haqqında Arayış, 1 v.
12. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Turizm şöbəsinin Xarici turizm sektorunun cari arxivi. Beynəlxalq sərgidə iştirak edən ölkələr və onların şirkətləri haqqında Cədvəl, 1 v.
13. Azərbaycan 7-ci Beynəlxalq Səyahət və Turizm Sərgisinə də imza atdı: Sərgidə 28 ölkədən 70-ə yaxın şirkət iştirak edir. «Yeni Azərbaycan» qəz., 2008, 17 aprel
14. Bilalov B.Turizm fəaliyyətinin tənzimlənməsi: Dərs bəsaiti. Bakı: Mütərcim, 2006, 276 s.
15. «BattTour-2008» beynəlxalq turizm sərgisi. «Səs» qəz., 2008, 12 fevral
16. 2007-ci ildə Azərbaycana 1 milyon 320 min turist gəlib. «Xəzər» qəz., 2007, 29 dekabr
17. Mükərrəmoğlu M. Moskvada turizm sərgisində Azərbaycan da iştirak etmişdir. «Xalq» qəz., 2008, 27 may
18. Еганлы С.Т., Гаджиев Э.М. Международный туризм и развитие туризма в Азербайджанской Республике. Баку: Мутарджим, 2003, 264 с.

## СОТРУДНИЧЕСТВО МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И СТРАНАМИ ВОСТОЧНОЙ ЕВРОПЫ В ОБЛАСТИ МЕЖДУНАРОДНОГО КУЛЬТУРНОГО ТУРИЗМА

**Г.Н.МАМЕДОВ**

**РЕЗЮМЕ**

В статье анализируются особенности и отмечается значение взаимной связи в области международного туризма Азербайджана со странами Восточной Европы. Туристические зарубежные связи Азербайджанской Республики со странами Восточной Европы сыграли ощутимую роль в взаимном культурном сотрудничестве, и имеют большие потенциальные возможности для дальнейшего развития.

## COOPERATION OF AZERBAIJAN WITH THE COUNTRIES OF EAST EUROPE IN THE FIELD OF INTERNATIONAL CULTURAL TOURISM

**H.N.MAMMADOV**

**SUMMARY**

The article studies features and value of interrelations of Azerbaijan with countries of East Europe in the field of international tourism. Foreign touristic ties of the Azerbaijan Republic with the countries of East Europe play an important role in mutual cultural cooperation, and have greater potential opportunities for the further development.